

■ Elçin İsgəndərzadə

# Günəşin elçisi

**əvvəli ötən sayda**

"Nifrətə nifrətim gəlir" - deyirdi.

Bu bir böyük insanın, böyük şairin ürək sözləriydi. Bu sözlərlə o haqsızlığa, zülmə, riyaya, yalana, paxıllığa, biganəliyə, nifrətə, kinə öz barışmaz mövqeyini bildirirdi.

* * *

Onun öz aləmi...

Çox zəngin ömrüm olub, deyir, çox zəngin aləmim olub. Bu zənginliklə bərabər acılar paralel uzanıb gedib. Paralel gedib ağrılar, ayrılıqlar, əzablar...

Sinəsində dövran eləyən ağrılar dövr eləyib, eləyib axırda şeirlərə çevrilib. O dövretmə içindəki iti bir çarxda hərlənib, fırlanıb və özü də o çarxın iti ucunda oturub.

Mübaliğəli olsa da deyir ki, bəlkə də bələkdən şairəm.

Bəlkə də şair olmasaydı, bu qədər ağrımazdı.

Şairlik ağrılardan keçir.

Və ağrılardan keçdi, keçir, keçəcək...

* * *

Ağrısa da, acısa da həmişə sözün düzünü deyib, yalandan uzaq olub, yalanı sevməyib həyatında. Haqqı deyib həmişə.

Özü də söhbətlərində deyirdi:

- Bircə onu bilirəm ki, həmişə haqqı yazmışam.

*Bəs şairlər?*
*Onlar da bir cürə əhmədi-biqəm*
*Füzulidən sonra ağlayanı yoxdur, balam!*
*Toy-bayramdı bu dünyanın işləri.*
*Ay ağlayan! Gəl bəri!*

Və deyirdi ki, şair xalqının güzgüsüdür. Şair ağlayanla ağlamalı, gülənlə gülməli və şairin gözündən heç nə qaçmamalıdır.

Özü də buna çalışırdı. Hamının dərdinə yanır, hər kəsi dinləyir, əlindən gələn köməyi əsirgəmirdi. Gücü çatmayan bir iş olanda da özünə yer tapmırdı bu boyda dünyada.

Elə bilirdi ki, şairsənsə hər şeyi bacarmalısan və yazdığın kimi də hərəkət eləməlisən. Yəni sözlərinlə əməllərin üst-üstə düşməlidir.

* * *

*Bir səhər çox şeylər baş verdi...*
*Bir səhər atasını itirdi, atasız qaldı.*
*Bir səhər anasını itirdi, anasız qaldı.*
*Bir səhər...*
*Səhərlər çoxuydu*
*və yenə də itirmək qorxusu varıydı canında.*
*Yoxxx itirmək istəmirdi qalanları.*
*Qalanların üstündə əsim-əsim əsirdi.*
*Və...*
*Bir səhər özü çıxıb getdi,*
*getdi gedənlərin yanına.*
*Qalanlar onsuz qaldı.*
*Jalə anasız,*
*Müjgan nənəsiz,*
*şeirlər şairsiz!*
*bağçalar gülsüz qaldı - şəbgülsüz.*
*Bir səhər gecə düşdü və qaranlıqda*
*bir şəbgül açdı.*

* * *

*Biri varıydı...*
*Bir qız varıydı,*
*çiçək kimi zərif,*
*su kimi duru,*
*şeir kimi duyğulu,*
*gözəl bir qız varıydı.*

*Adı nurla başlayırdı - Nurəngiz!*
*Günəşdən nur alırdı,*
*çiçəklərdən gözəllik,*
*həyatdan sevgi,*
*sevgidən yaşamaq*

*Yaşamağı sevirdi,*
*ailəsini,*
*atasını, anasını,*
*doğmalarını,*
*Günəşi və dənizi sevirdi.*

*Sonra şeir yazdı,*
*şeirləri sevdi.*
*Hekayə yazdı,*
*hekayələri sevdi.*
*Nağılları onsuz da sevirdi*

*İnanırdı ki, dünya bir nağıl,*
*nənələr nağılçı*
*və uşaqlar da nağıl uşaqlarıdı.*

*Bir də inanırdı ki,*
*nağıldan gəlib,*
*nağıla gedəcəklər.*

*Günəşli nağıllarda qalmışdı uşaqlığı*
*və Günəşə baxanda uşaqlığını xatırlayırdı.*
*Günəş həmişə gülümsəyirdi üzünə,*
*Günəş uşaq üzlüydü.*



*Deyirdi ki,*
*milyon yaşı var Günəşin, amma böyüməyib hələ.*

*Deyirdi ki, Günəş uşaq qalıb...*
*və o da Günəşə gülümsəyirdi.*
*Və elə Günəşə də bənzəyirdi,*
*Günəş üzlü, Günəş sözlü,*
*Günəş xəyallı Nurəngiz.*

*Hər səhər danyeri söküləndə*
*Günəşin doğmasını seyr edər,*
*Günəşə Salam verərdi.*

*Bütün günü Günəşlə dərdləşər,*
*Günəşə dualar edər,*
*Günəşlə günü başa vurardı.*

*Günəşi yatmağa göndərib sonra uyuyurdu...*
*Hardan gəlirsən, ay qız!*
*- Günəşdən.*
*Nə oxuyursan, ay qız!*
*- Günəşi içənlərin türküsünü.*
*Nə şəkli çəkirsən, ay qız!*
*- Günəşi çəkirəm.*
*Oxuduğun nəğmənin adı nə?*
*- Günəş!*
*Ən çox kimi sevirsən, ay qız!*
*- Günəşi.*
*Günəş nəyindi sənin?*
*- Hər şeyim, hər şeyim,*
*geçmişim, gələcəyim.*
*Günəş də səni sevirmi ?*
*- Çoxx, çoxx!!!*
*O yolun adı nə?*
*- Günəş yolu.*
*Hara gedirsən, ay qız!*
*- Günəşə.*
*Günəşə Salamlar apar bizdən.*
*- Salam, Günəş, Salam, Günəş!!*
*Günəş bir əbədiyyət nəğməsi,*
*kimlər oxumadı ki, o nəğməni.*
*Gələn oxudu, gedən oxudu...*
*Hələ çox oxunacaq Günəşli nəğmələr,*
*çox oxunacaq.*
*Və bir qız gələcək Günəşdən,*
*nur üzlü qız!*
*Bu tanış dünyanın tanış yerlərindən keçəcək,*
*hardan keçsə, ora nur yayılacaq,*
*Günəşin nuru.*
*Adın nədir, ay qız!*
*- Günəş!*

* * *

Ailənin ilk övladı olduğuna görə atası həmişə ona şahzadəm deyərdi və çox sevərdi. O bir atasının deyil, hamının, bir nəslin sevimli qızı idi. Özündən sonra ailədə beş uşaq doğulmasına baxmayaraq, o yenə də sevimli və şahzadə olaraq qalırdı.

Evdə ona qarşı o qədər rəğbət, məhəbbət vardı ki, özü də bu sevgidən xoşlanırdı və hamının ona bacı deməsindən qürur duyurdu. Qürur duyurdu, ona görə ki, o bu sevgiyə layiqli övlad, bacı olduğunu bütün məsuliyyəti ilə hiss edir və istəyirdi ki, ona olan bu məhəbbəti öz əməlləriylə qoruyub saxlaya bilsin.

Evdə hamı ona bacı deyir, bir sözünü iki eləyən olmurdu və nə edirdilərsə, nə iş görürdülərsə ondan icazə alırdılar. O da öz növbəsində hər bir işə yetməyə çalışır, hər kəsin dadına çatmaq istəyirdi. Sanki birdən bir nəfər yox, beş adam olurdu.

Valideynlərinin sağlığında hər şeyin yaxşısı onun üçün düşünülür, hər şeyin gözəli onun adına yazılırdı.

Sonra da, valideynlərinin ölümündən sonra ailənin bütün yükünü o çəkməli oldu. Evin böyüyüdü deyə özündən kiçiklərə həm ata oldu, həm ana.

Orta məktəbdə də sayılıb seçilən şagirdlərdən idi. Həmişə valideynlərinin üzünü ağ edirdi. Müəllimlər də onu sevir, valideynlərinə razılıq edirdilər ki, Nurəngiz onların sayəsində çox çalışqan, savadlı və məlumatlıdır.

Şərq dillərini çox sevirdi deyə, ən böyük arzusu şərqşünas olmaq idi. Məktəbi bitirən kimi sənədlərini universitetin şərqşünaslıq fakültəsinə verir və imtahanlardan uğurla çıxmasına baxmayaraq, onu kəsirlər.

Sonradan aldığı məlumata görə onun yerinə başqa, tapşırılmış bir qızı salırlar. Halbuki o qız savadda, bilikdə qat-qat ondan geridə idi. Bundan mütəəssir olan Nurəngiz xanım İncəsənət institutunun aktyorluq fakültəsinə qəbul olur və çox keçmədən öz səyi, bacarığı, istedadı ilə Rza Təhmasibin ən sevimli tələbələrindən biri olur. Həmişə müəllimi onun haqqında danışanda, ona böyük ümidlər bəslədiyini, gələcəyin parlaq olacağını deyir. Gələcəyin böyük aktrisası olacaqdı, müəlliminin sözlərinə görə.

Atası isə heç bir vəchlə Nurəngizin aktrisa olmasını, səhnələrdə çıxış etməsini istəmirdi. Hətta institutu bitirəndən sonra, təyinatını dram teatra alanda, evdə valideyinlərinin narazılığı ilə üzləşir.

İndiyə kimi valideynləri onun bir istəyinə qarşı çıxmasalar da, bu böyük arzunun ziddinə gedirlər.

Nurəngiz xanım valideynlərinə hədsiz bağlı övlad idi, onları həyatından çox istəyirdi və onları incitməmək üçün sənədlərini teatrdan geri alır və Azərbaycan radiosunda əvvəl stajor, sonra da diktor kimi fəaliyyətə başlayır.

Əslində bura onun doğma məkanı idi. Hələ uşaqlıqdan burda pioner verilişləri aparmış, şeirlər söyləmiş, uğurlar qazanmışdı. Elə bu doğma radioda onun gələcək arzularının təməli qoyulmuşdu. Onda hələ uşağıydı, onu dinləyənlər, səsinə qulaq asanlar, bu uşağın deklomasiyası tamam fərqli, tamam poetikdir, deyirdilər.

60-cı illərin əvvəllərində radio diktoru kimi ilk dəfə dinləyicilərinin qarşısına çıxır və ona qulaq kəsilənləri səsinin sehrinə salır. Səsiylə neçələrini tilsimləyir, neçələrini ovsunlayır. Səsinin sehrinə düşənlər iş yerinin qarşısında onun işdən çıxmasını gözləyir, onunla danışmaq, tanış olmaq istəyirdilər.

Onu sevənlərin əksəriyyəti elə səsinin sehrinə düşənlər idi.

Bunu özü də gülə-gülə etiraf edirdi.

Bilmirsiniz ey, səsim başıma nə oyunlar gətirib deyirdi və səsiylə bağlı o qədər maraqlı hadisələr danışırdı ki...

Hamı ona səsi özündən gözəl, özü səsindən gözəl qız, deyirdi həm də. Ona görə adi səsiydi səsi, amma dinləyənlərə görə sehirliydi.

*Heç özünün də xəbəri yoxuydu səsindəki sehrdən.*
*Heç özü də bilmirdi ki, səsində nələr var.*
*Səsi bulaq kimi axırdı...*
*Radionun dalğalarından axıb evlərə,*
*küçələrə, ürəklərə dolurdu.*
*Bu boyda məmləkəti dolanırdı səsi.*
*Səsi gözəlliyin özüydü,*
*şeiriydi, bulağıydı, su idi.*
*O Günəşi içirdi, Günəş də onun səsini.*

Sonra bu səs radiodan qopub televiziyanın yaraşığına çevrildi. 1969-cu il may ayının 9-da Nurəngiz xanım Azərbaycan Dövlət Televiziyasının ekranından milyonlarla tamaşaçıya "sabahınız xeyir" dedi. Artıq səsini sevib üzünü görməyənlər ona ekranlarda baxırdılar. Bu səsin sahibini görəndən sonra bu dəfə də onun gözəlliyinə valeh olurdular və onu sevənlər hər gün çoxalırdı. Yüzlərlə məktub alırdı, sevgi məktubları da...

* * *

Amma o bu qədər sevənlərin içindən birini sevməli, birini seçməliydi.

Sevdi də.

Seçdi də.

Xoşbəxt olmaq istədi.

Və bu xoşbəxtliyə onun da haqqı varıydı.

O haqqı olanına qovuşmaq istədi...

...Sonra yeni dünya tapdı Jalənin dünyaya göz açmasıyla.

Hələ ona ana deməsiylə, sanki dünyaları ona verdilər.

Onda anladı ki, ana olmaq elə xoşbəxt olmaq deməkdir.

Və ana xoşbəxtliyinin kölgəsində iti qadın xoşbəxtliyi.

Jaləsiylə nəfəs aldı, Jaləsiylə sevindi, yaşadı.

Yaşamaq belə daha gözəldir, dedi.

*Arxamda sarp enişlər,*
*Çiynimdə Günəş tayası,*
*Ağuşumda Jalən və titrəyişim...*
*Yol gedirəm, yol olanadək.*

Jaləsini bağrına basıb həyatın dolanbac yollarından keçdi. Yıxıldı da, durdu da, amma əyilmədi, sınmadı. Məğrur bir fədai kimi övladının pərvanəsi oldu, onu böyütdü, qorudu, sevdi...

Nə yaxşı dedi alnıma analıq yazılıb,

Nə yaxşı dedi, anayam.

Ana olmaq nə böyük səadət, nə gözəl duyğu, nə şirin söz... İlahi!

**Ardı var**



Kaspi 2019.-16-18 noyabr.- S.18.